


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 36 (24.173)

24 fevral 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Şərur rayonunun Həmzəli və Axura kəndlərində sosial obyektlər istifadəyə verilib








Fevralın 23-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Şərur rayonunun Həmzəli və Axura kəndlərində aparılan kompleks quruculuq işləri ilə tanış olub.

Əvvəlcə yenidən qurulan Həmzəli kənd tam orta məktəbi ilə tanışlıq zamanı məlumat verilib ki, ikimərtəbəli, 198 şagird yerlik məktəbdə 11 sinif otağı, fizika, kimya-biologiya laboratoriyaları, hərbi kabinə, STEAM kabinəsi, kitabxana, idman zalı, şahmat sinfi, kompüter, müəllimlər və digər otaqlar yerləşir. Burada internetə çıxışı olan 14 kompüter və 4 elektron lövhə quraşdırılıb. Məktəbin pedaqoji kollektivi ilə görüşdən sonra Həmzəli kənd yolunda görülən işlər barədə bildirilib ki, ümumi uzunluğu 9 kilometr olan yolun əsas və köməkçi hissələrinə birqat asfalt örtüyü, 800 metr kənddaxili yola isə qum-çınqıl qatı verilib.

Kənd və xidmət mərkəzlərində yaradılan şərait barədə məlumat verilib ki, 2 mərtəbəli kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, poçt, polis sahə məntəqəsi, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, feldşer-mama məntəqəsi, arxiv, klub, 38 yerlik zal, qazanxana və digər otaqlar yerləşir. Xidmət mərkəzində isə ərzaq və təsərrüfat malları mağazaları, ət satışı yeri, bərbər, qadın gözəllik salonu və 1 anbar fəaliyyət göstərir.

Həmin gün Axura kəndində kənd mərkəzi, həkim ambulatoriyası və yenidən qurulan 7,1 kilometr kənd yolu ilə də tanışlıq olub.

**"Şərq qapısı"**

## Sədərək rayon sakinlərinin müraciətləri dinlənilib

Fevralın 22-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Sədərək rayonunda olub, sakinlərlə görüşüb, onların müraciətləri dinlənilib.

Əvvəlcə Sədərək rayonundakı Şəhidlər xiyabanı və Ümummilli Lider Heydər Əliyevin Sədərək rayonunun Heydərabad qəsəbəsindəki büstü ziyarət edilib, gül dəstələri qoyulub.

Sonra görüşdə Sədərək rayonundan olan 22 şəhid ailəsinin və 228 rayon sakininin müraciəti dinlənilib.

**"Şərq qapısı"**

## Ekoloji hüquqpozmalarla bağlı seminar olub



Fevralın 23-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə "Ekoloji hüquqpozmalar – qanunsuz ağackəsmə, yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma hallarının araşdırılması" mövzusunda seminar keçirilib.

Seminarda muxtar respublika Prokurorluğu və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən ekoloji hüquqpozmaların aşkar edilməsi, araşdırılması, bu sahədə nəzarətin təşkili, ekoloji tarazlıq və təhlükəsizliyin təmin olunması, təbii ekoloji sistemlərə təsərrüfat və başqa fəaliyyətin zərərli təsirinin qarşısının alınması, ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması, profilaktikası, təbii ehtiyatlardan səmərəli istifadə, ətraf mühitin mühafizəsi sahəsində qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi və digər mövzular üzrə ətraflı çıxışlar edilmiş, səmərəli müzakirələr aparılmışdır.

**Xəbərlər şöbəsi**

## Muxtar respublikada səhiyyənin inkişafı istiqamətində tədbirlər ötən il də ardıcıl həyata keçirilib

*Dövlət başçımızın rəhbərliyi ilə ölkədə səhiyyənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər, müasir səhiyyə infrastrukturunun yaradılması, tibbi kadr potensialının formalaşdırılması muxtar respublikada da əhaliyyə yüksək səviyyəli tibbi xidmətin təşkilinə əsaslı töhfələr vermişdir.*

Hazırda Naxçıvandakı səhiyyə müəssisələrində hər ay minlərlə insan ambulator və stasionar müalicə edilir. Yerli kadrlar tərəfindən müstəqil şəkildə bir çox mürəkkəb cərrahiyyə əməliyyatlarının aparılmasına nail olunub. Mövcud kadrların ixtisaslarını artırmaq üçün müxtəlif həkim briqadaları Naxçıvana dəvət edilmiş və yerli kadrlarla birgə müayinə və müalicələrin aparılmasında iştirakı ardıcıl təmin olunmuşdur.

Səhiyyə müəssisələri tərəfindən xəstələrə müayinə, müalicə və dərman təchizatı sahəsində keyfiyyətli xidmət göstərilməsi işi də daim nəzarətdə saxlanılır. Bu gün muxtar respublikada yaşayan 124 xroniki böyrək çatışmazlığı ilə hemodializ seansı alan xəstə, 58 dağınıq skleroz, 6 qaraciyər köçürülən, 30 böyrək köçürülmüş, 70 hemofiliya, 38 talassemiyalı xəstə və imtiyazlı qrup xəstələr daim yüksək qayğı ilə əhatə olunaraq vaxtlı-vaxtında dərman preparatları və tibbi xidmətlərlə təmin edilirlər. Həyata keçirilən tədbirlər nəticəsində şəkərli diabet xəstələrinin dərman və özünənəzarət vasitələri ilə təminatı xeyli yaxşılaşmışdır.

Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqi əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu gün respublika əhəmiyyətli xəstəxanalar, rayon mərkəzi xəstəxanaları, qəsəbə və kənd sahə xəstəxanalarının hamısı publik hüquqi şəxs statusu almışdır. İcbari tibbi sığortada iştirak edən işçilərin əməkhaqları 50 faiz artırılmaqla yanaşı, ödənişli xidmətlərə görə qazanılan vəsaitin 30 faizdən işçilərə həvəsləndirici əlavələr verilir. Ötən il ərzində muxtar respublikanın tibb müəssisələrinin ambulatoriya bölmələrinə 769971 gəliş olmuşdur ki, bunun da 682444-nü sığortalı xəstələr təşkil etmişdir.

Həyata keçirilən tədbirlər sırasında müxtəliftipli aksiyaların təşkil edilməsi də diqqətdə saxlanılmış, 2022-ci il ərzində humanitar aksiyalar, yardımlar təşkil olunmuşdur. Belə ki, hesabat dövründə muxtar respublikada fəaliyyət göstərən tibb müəssisələrinin və muxtar respublikaya gələn ölkə və beynəlxalq səviyyəli yüksəkixtisaslı həkim heyətinin iştirakı ilə müxtəlif kateqoriyadan olan şəxslərə, ümumilikdə, 26568 müayinə və müalicə, sünnət, göz, ginekoloji, kiçik cərrahi əməliyyat icra olunmuş, təhsil müəssisələrində şagirdlərin pediatr, oftalmoloq, stomatoloq, ortoped tərəfindən kütləvi müayinəsi nəticəsində 51635 uşaqdan 42807 uşaqda müayinə aparılmış, 5408 nəfər dispanser qeydiyyata alınmışdır.



Strateji əhəmiyyətli məsələ kimi qan xidmətinin inkişafına da xüsusi diqqət yetirilir. Hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasında mövcud şərait Mərkəzi Qan Bankının fəaliyyətinə geniş imkanlar açıb. Hesabat ili ərzində qanvermə aksiyaları təşkil edilərək 214 donordan 107 litr, Aşura günü ilə əlaqədar ənənəvi keçirilən qanvermə aksiyasında isə Respublika Xəstəxanası, Diaqnostika Müalicə Mərkəzi və rayon mərkəzi xəstəxanalarında, bütövlükdə, 590 nəfərdən 293,5 litr qan tədarük edilmişdir.

Məktəbəqədər müəssisələrdə, məktəblərdə, ictimai iaşə, su təchizatı qurğuları və digər obyektlərdə sanitar-gigiyenik vəziyyətə nəzarət yoxlamaları davam etdirilib. Muxtar respublika məktəblərində 1-6-cı sinif şagirdlərindən olan 19087 uşaqdan 16718 uşağa tuberkulin sınağı aparılmış, 16380 uşaqda mənfi, 278 uşaqda şübhəli, 57 uşaqda müsbət, 3 uşaqda hiperergik reaksiya aşkar edilmişdir. Şübhəli olanlar ətraflı müayinə üçün Ağciyər Xəstəlikləri Dispanserinə dəvət olunmuşdur.



Təcili Tibb Mərkəzi və Rayon Mərkəzi xəstəxanalarının Təcili yardım şöbələri tərəfindən 34556 çağırış yerinə yetirilmişdir.

Müalicə-profilaktika işinin təşkili sahəsində görülən tədbirlər tibbi xidmət keyfiyyətinin və əhalinin sağlamlığının artmasına və eləcə də demoqrafik vəziyyətə müsbət təsir göstərmişdir. Belə ki, 2022-ci ildə 4534 uşaq doğulmuş, 2340 ölüm halı qeydə alınmış, təbii artım 2194 nəfər, doğum göstəricisi 9, ölüm göstəricisi 4,9, 1 yaşa qədər uşaq ölümü 2,2 promilli təşkil etmişdir.

Muxtar respublikada hesabat ili ərzində "Vərəmin aşkarlanması, diaqnostikası, müalicəsi və profilaktikasına müasir yanaşmalar", 24 mart – Beynəlxalq Vərəmlə Mübarizə Günü ilə əlaqədar, "Neonatologiyanın aktual problemləri" mövzusunda beynəlxalq, "Endokrinologiyanın aktual problemləri" mövzusunda elmi-praktik, "Tibbin aktual problemləri", "Atipik antipsixotiklərin depressiv və yuxu pozuntularında istifadəsi, arterial hipertenziyanın müalicəsinə müasir yanaşmalar, sidik saxlamazlıq səbəbləri və müalicəsi" konfransları, 15 İyun – Milli Qurtuluş Gününə həsr edilmiş Azərbaycan kardioloqlarının növbəti regional konfransı, "Nadir irsi metabolik xəstəliklər – 1-ci tip irsi Tirozinemiya" mövzusunda seminar, "Oftalmologiyada yeniliklər" mövzusunda X Regional Konfrans keçirilmişdir.

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu tərəfindən "Sinir sistemi xəstəlikləri zamanı təxirəsalınmaz vəziyyətlər" mövzusunda onlayn təkmilləşdirmə kursunda həkim-nevropatoloq, anestezioloq-reanimatoloqlar, təcili tibbi yardım həkimləri, qəbul həkimləri və neonatoloqlar olmaqla, ümumilikdə, 66 nəfər iştirak etmişdir.

Hər il olduğu kimi, 2022-ci ildə də Duzdağ Fizioterapiya Mərkəzi, Darıdağ Arsenli Su Müalicəxanası muxtar respublikanın ümumi turizm potensialının mühüm bir hissəsini təşkil etmiş, Duzdağ Fizioterapiya Mərkəzində ölkəmizin və bir çox xarici ölkələrin vətəndaşları müalicə olunaraq şəfa tapmışlar.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini 2022-ci ildə yüksək səviyyədə də davam etdirmiş, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqət mərkəzində saxlanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Xəbər verdiyimiz kimi, fevralın 18-də Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Almaniyaya işgüzar səfəri uzun illərdir, bünövrəsi qoyulan Azərbaycan-Avropa, habelə Azərbaycan-Almaniya siyasi əlaqələrinin daha bir uğurlu təzahürü kimi özünü göstərdi. Əlverişli coğrafi-geosiyasi məkanda, tranzit yolların üzərində və dünya ticarət şəbəkəsinin qovşağında yerləşən ölkəmiz Cənubi Qafqazın lokomotiv siyasi gücü kimi daim dünyanın, o cümlədən Avropanın və Yaxın Şərqin diqqət mərkəzində olub.*

# Ölkə başçımızın Almaniyaya səfəri Azərbaycan diplomatiyasının uğuru kimi tarixə düşdü

Ötən əsrin 90-cı illərində Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmiz çətin, məşəqqətli günlərdən aydınlığa çıxmışdı, qısa zamanda öz tarixi mövcudluğunu sübuta yetirərək nəinki regionun, hətta dünyanın qabaqcıl ölkələri sırasında olmağa haqq qazanmışdı. Bu gün artıq ölkəmiz Ümummilli Liderin ənənələrinə sadiq qalaraq uğurla irəliləyir, Ali Baş Komandan tərəfindən hər ötən gün yeni uğurlar qazanılır, istər hərbi-siyasi, istərsə də siyasi-ictimai müstəvidə böyük işlər görülür. Bu gün tam əminliklə deyə bilərik ki, analoji tərəqqi yolu keçmiş bir sıra Qərb dövlətlərində olduğu kimi, Azərbaycanda da zəngin təbii potensialın milli mənafelərə uyğun reallaşdırılması, respublikamızın regional və qlobal miqyasda təsir edən proseslərə geniş nüfuz imkanları qazanması məhz milli lider amili ilə şərtlənir.

Qeyd etdiyimiz kimi, ölkə başçımızın Almaniya Respublikasına işgüzar səfəri hər iki ölkənin uzun illərdir, qazandığı əlaqələrin daha da inkişaf etməsinə şərait yaratdı. Keçirilən yüksək səviyyəli görüş, həm də Azərbaycan-Almaniya mədəni əlaqələr sistemində əməkdaşlıq sahəsinin tarixi təcrübəsinə istinad edərək daha da inkişaf etdirilməsi üçün konkret addımlar atılmasına ciddi təkan oldu. Mövzu ilə bağlı muxtar respublikamızın ictimai fəalları, alim və siyasi xadimlərinin məqalə və müsahibələrini çoxsaylı oxucularımıza çatdırmaq ənənəsinə sadiq qalıb, ölkənin yeni siyasi qələbələri ilə bağlı növbəti ziyalı mövqeyini öyrənmək qərarına gəldik.

Həmsöhbətimiz Naxçıvan Dövlət Universitetinin rektoru, tarixçi-alim ***Elbrus İsayev*** ilk olaraq Almaniya və Azərbaycan əlaqələrinin tarixi köklərindən danışdı: – Bildiyimiz kimi, ölkəmizin tarixi-taleyində əhəmiyyətli addımlar ötən əsrin 90-cı illərində atılıb. Rusiya Sovet Sosialist Respublikasının 70 illik əsarətinin ardınca xalqımızın həmrəylik nümayiş etdirməsi, o cümlədən həmvətənlərimizin təkidi ilə tələbi ilə Ümummilli Liderin Azərbaycanda siyasi hakimiyyətə gətirilməsi bir çox nailiyyətlərin əsasını qoymuşdu. Həmin illərdən etibarən Ulu Öndər Heydər Əliyev Azərbaycanın işğal təhlükəsi, tarixin səhifələrindən silinib yox olmaq təhdidi ilə üz-üzə qaldığı bir zamanda ölkəmizin gələcək taleyini hər bir istiqamətdə inkişafa doğru dəyişdi. Nəticədə, Azərbaycan qısa bir zaman ərzində Qafqaz regionunun ən ali və güclü dövlətinə çevrildi. Bir-birinin ardınca görülən böyük işlərin nəticəsində nizamlı ordunun yaradılması, dünya ölkələri ilə işgüzar görüşlərin keçirilməsi, torpaqlarımızın ərazi bütövlüyünün təmin olunması, erməni qəsbkarlarının törətdiyi soyqırımı aktlarına sərt mövqeyin təyin olunması, Qarabağın işğalına siyasi qiymətin verilməsi, Xocalı faciəsinin beynəlxalq müstəvidə tanıdılması və nəhayət, dünyanın bir sıra siyasi gücləri, qabaqcıl ölkələri ilə iqtisadi-siyasi, sosial əlaqələrin təmin edilməsi Azərbaycanın ən böyük uğuru idi.

Elbrus müəllim diqqətə çatdırır ki, Azərbaycan və Almaniya respublikaları arasındakı tarixi əlaqə ötən əsrin 90-cı illərinə təsadüf edir. Almaniyanın Azərbaycanın müstəqilliyini 1992-ci il 12 yanvarda tanıması ilə bu əlaqələr daha uğurlu xarakter almağa başladı. Geniş müstəvidə isə Azərbaycan ilə Almaniya arasında diplomatik münasibətlər 1992-ci ilin 20 fevralında quruldu. Bununla yanaşı, 2 sentyabr 1992-ci ildə Azərbaycanın Almaniyada səfirliyinin, 22 sentyabr 1992-ci ildə Almaniyanın Azərbaycandakı səfirliyinin açılmasından sonra ölkəmizin Almaniya Respublikası ilə əlaqələri daha ali xarakter aldı, o cümlədən diplomatik münasibətlərin yaranmasından sonra Azərbaycan və Almaniya arasında əlaqələr mütəmadi olaraq inkişaf etdi. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə Prezident seçilməsindən sonra dünyanın bir sıra qabaqcıl ölkələri ilə siyasi əlaqələr daha da genişləndi. Hətta bir tarixi faktdır ki, Ümummilli Lider Heydər Əliyev ozamankı Almaniya Prezidenti Roman Hersoqun dəvəti ilə 1996-cı il 1-4 iyul tarixlərdə Almaniyada rəsmi səfərdə olub, Almaniyanın prezidenti, kansleri, vitse-kansleri, həmçinin digər hakimiyyət nümayəndələri ilə görüşlər keçirib. Bu görüşlər zamanı ölkələr arasındakı əməkdaşlığın xüsusiyyətləri geniş şəkildə müzakirə edilib. Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı və münaqişənin sülh yolu ilə həlli məsələləri Azərbaycan Prezidentinin keçirdiyi görüşlərin əsas müzakirə mövzusu olub. Səfər çərçivəsində siyasi, iqtisadi və elmi-texniki əməkdaşlıq sahəsində bir neçə tarixi müqavilə imzalanıb. Bu illər ərzində Almaniya ilə Azərbaycan arasında müdafiə, siyasi təhlükəsizlik, terrorizmə qarşı mübarizə sahəsində uğurlu əməkdaşlıq aparılıb.

Elbrus İsayev qeyd edir ki, 1963-cü ildən bu günədək təşkil edilən Münxen Təhlükəsizlik Konfransı hər zaman dünyada təhlükəsiz həyatın təmin edilməsini və bu prosesin həlli yollarını gündəliyin əsas mövzusu kimi diqqətdə saxlayır. Bu baxımdan Prezident cənab İlham Əliyevin bu konfransa dəvət alması və orada iştirakı Azərbaycanın sülh tərəfdarı olduğunu bir daha göstərir.

*“Ölkə başçısının Münxendə belə tarixi və demokratik səviyyəli görüşlərdə iştirak etməsi ölkəmizə gələcəkdə nə kimi uğurlar gətirəcək?”* sualına isə müsahibimiz belə cavab verir: – Prezident cənab İlham Əliyevin Münxen səfəri ölkəmiz üçün mühüm hadisəyə çevrildi. Dünyanın hərbi, siyasi və iqtisadi sahələrinin liderləri ilə görüşlər Azərbaycanın Avropa İttifaqı üçün etibarlı və təhlükəsiz enerji tərəfdaşı olduğunu bəyan etdi. Səfər çərçivəsində keçirilən görüşlər Azərbaycan-Avropa əlaqələrinin inkişafı baxımından mühüm mərhələ hesab oluna bilər. Dövlətimizin başçısı panel iclaslarında, dəyirmi masada Azərbaycan reallıqlarını bir daha böyük məharətlə dünya ictimaiyyətinə təqdim etdi. Təhlükəsizlik konfransında Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və Azərbaycanın ədalətli və qətiyyətli mövqeyi nümayiş olundu. Prezident cənab İlham Əliyev Münxendə “Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması” mövzusunda plenar iclasdan sonra Azərbaycan televiziya kanallarına müsahibəsində İkinci Qarabağ müharibəsindən sonra bölgəmizdə də vəziyyətin tamamilə dəyişdiyini bildirərək yeni reallıqların ortaya çıxdığını diqqətə çatdırdı: ***“Biz hazır olmalıyıq ki, bu reallıqlarda öz mövqeyimizi daha da gücləndirək. Bugünkü panel müzakirəsi bir daha onu göstərdi ki, bəziləri bu reallıqlarla barışmaq istəmirlər, amma məcbur olub barışacaqlar. Çünki biz real dünyada yaşayırıq və bölgəmizdə gedən proseslər, əlbəttə ki, yeni yanaşmaları tələb edir”.***

Elbrus İsayev Ali Baş Komandanın tarixi görüşdəki nitqi ilə bağlı vurğulayır ki, xüsusilə postmüharibə dövründə Cənubi Qafqazda Azərbaycanın aparıcı mövqeyini təsdiq edən faktlarla zəngin olan bu çıxış Azərbaycan-Avropa birliyinin gələcək səmərəli əməkdaşlığına istiqamət verdi. Cənab Prezidentin tarixdən və beynəlxalq hüquq normalarından gətirdiyi çoxsaylı faktlar bir daha dünya birliyinə Azərbaycanın ədalətli mövqeyini, tarixi həqiqətləri Avropa və bu vasitə ilə dünya ictimaiyyətinə çatdıra bilmişdi. Keçirilən ikitərəfli görüşlərdə, müzakirə panellərində, həmçinin dəyirmi masada cənab Prezidentin sadaladığı faktlar beynəlxalq hüquq normalarına söykənən dəlillər kimi tarixə düşdü. Və bu tarixi sübutlar dövlətimizin haqlı və sülhsevər siyasətinin dəstəklənməsini bir daha şərtləndirdi. Azərbaycanın tarixi torpaqlarında vaxtilə ermənilərin apardığı terror siyasətinin, eyni zamanda ikili standartların aradan qaldırılmasına yönəlik səsləndirilmiş faktlar bir daha Cənubi Qafqazda sülhə mane olmaq istəyən və bu münasibətlərin tənzimlənməsində maraqlı olmayan qüvvələrin suallarına ən tutarlı cavab oldu. Bir sözlə, Münxen Təhlükəsizlik Konfransı bir daha təsdiq etdi ki, bu gün Cənubi Qafqazın aparıcı lider dövləti olan Azərbaycanın iqtisadi-siyasi və geostrateji baxımdan əldə etdiyi üstünlüklər, diplomatik uğurlar, iqtisadi nailiyyətlər Azərbaycanı uzun illər boyunca bölgənin aparıcı dövlətinə çevrilməsini şərtləndirən başlıca amillərdir.

Artıq tam əminliklə deyə bilərik ki, hazırda müstəqil dövlətimizin beynəlxalq aləmdəki mövqeləri xeyli möhkəmlənmiş, əlaqələri genişlənmişdir. Bu da günümüzün, əsrimizin reallığıdır ki, dövlət başçımızın dünya səviyyəsində həyata keçirdiyi balanslaşdırılmış xarici siyasəti Azərbaycanı inkişaf etmiş demokratik ölkə kimi nüfuzunu daha da artırıb. Son olaraq onu da qeyd edək ki, ölkəmizin tarixi Qarabağ Zəfərindən sonra Qafqaz regionunda qazandığı böyük status dövlətimizin, xalqımızın gücünü, iradəsini dünyaya bəyan etdiyi kimi, həm də düşməni sülh şəraitinə məcbur etməyə şərait yaradıb. Ermənistanın Azərbaycanla sülh şəraitində yaşaması isə tarixin səhifələrindən silinib yox olmaması üçün ən təsirli və çıxarlı yoldur. Elə Ali Baş Komandanın Münxen Konfransında söylədiyi kimi: ***“Hesab edirəm ki, Azərbaycan və Ermənistan uzun müddət çəkmiş toqquşmadan uzaqlaşmanı nümayiş etdirməli, qarşılıqlı ədavət və düşmənçiliyə son qoymalıdırlar. Hazırda biz Ermənistan ilə Azərbaycan arasında sülh sazişi üzərində çalışırıq. Ümid edirik ki, biz bu işi gec yox, tezliklə tamamlayacağıq. Düşünürəm ki, bu, ciddi tarixi fikir ayrılığına malik olan ölkələrin bir araya gəlməsi və düşmənçilik səhifəsinin bağlanmasında yaxşı nümunə ola bilər”.***

**✍ Məcid RƏŞADƏTOĞLU**

*Məqaləni məişət şəraiti ürəyimcə olan – qaz sobası yanan işıqlı bir otaqda yazıram. Otağımız isti və rahatdır. Uzun illər arzusunda olduğumuz kimi...*

# Çətinlikdən tərəqqiyə doğru



Fikir, düşüncə məni 32-33 il əvvələ qaytarır. Soyuq qış gecəsi, neft lampasının işığı – odun sobası gah yanır, gah sönür. Evdəkilər kül aparıb, odun gətirməkdən, mən isə qış günündə odun yarmaqdan lap yorulmuşdum. Nə qədər çalışsam da, ailəm üçün lazımi məişət şəraiti yarada bilmirdim. Yanan neft lampasının işığında gözüm yaxşı görmürdü. Buna görə də oxuduğum kitabı, yazdığım yazını tamamlaya bilmirdim. Hirslənib özümdən çıxırdım. Gün-güzəranımızdan gileylənməyə başlayırdım: “Görəsən, nə vaxt biz də ürəyimiz istəyən kimi yaşaya biləcəyik”, – deyə az qala üsyan edirdim. Elə onda rəhmətlik anam məni sakitləşdirərək deyirdi:

– Oğul, elinən gələn dərd toybayram sayılar. İnşallah, bir neçə ildən sonra bu günləri xatirə kimi yada salarsan. Hər şey yaxşı olacaq. Allah dövlətimizə qədir-qiymət bilən insanlar nəsib etsin ki, onlar da bizim üçün yaxşı gün-güzəran yaratsınlar. Darıxma, qara günün ömrü az olar. Sabah gündüz yazıb, oxuyarsan.

Beləcə, anamla söhbətdən sonra bir qədər sakitləşib, yenidən öz işimi görərdim və düşünərdim ki, sabah hansı işləri görəcəyəm. Naxçıvana gedib un və neft alıb gətirməliyəm. Un azalıb, neft tükənib. Elə bir dövr idi ki, yollar bağlanmışdı, mənfur düşmənlərimiz məkrli niyyətlərini həyata keçirmək üçün bu bölgəni blokadaya almışdılar.

Həmin vaxtlar Naxçıvan şəhərində və yerlərdə oğurluq, quldurluq, natəmizlik, antisanitariya son həddə çatmışdı. Bəzi insanlar isə bundan özünə sərf eləyən şəkildə istifadə edirdilər. Gənclər “başlı-başını” saxlasın zamanında zərərli vərdişlərə aludə olmağa başlamışdılar. Bu isə ziyalıları, ictimaiyyət nümayəndələrini və demək olar ki, hər kəsi narahat edirdi. Bu səbəbdən insanlar günün günorta çağı belə küçəyə çıxmağa ehtiyat edirdi.

İctimai asayişin pozulduğu, əmin-amanlığın xaosla əvəz olunduğu bir vaxtda ailələrdə çox ciddi məişət və iqtisadi problemlər yaranmışdı. Elə bu səbəbdən insanların sabaha olan ümidi azalırdı. Belə bir dövrdə sərhədlərimizdə gecənin qaranlığını yaran, sakitliyini pozan atəş səsləri yuxumuzu ərşə çəkmişdi. Başımıza gələn müsibətlər azmış kimi, 20 Yanvar faciəsini də yaşadıq. O gecə xalqımızın birliyi, həmrəyliyi dünyanı heyrətə saldı. Şəhidlər verdik, dəhşətli günlər yaşadıq. Ulu Öndərimiz Heydər Əliyev Moskvadakı Azərbaycan Nümayəndəliyinə gələrək xalqımıza başsağlığı verdi. Məhz bundan sonra dünya ictimaiyyəti hadisədən xəbər tutdu.

O dəhşətli günlərdə yurdumuzun başı üzərində bir Günəş doğdu. Hamının qəlbi işıqlandı. Xalqımız hiss etdi ki, arxasında güclü dövlət, dövlətinsə başında millətsevər rəhbər – Ulu Öndər kimi dahi şəxsiyyət dayandıqca bu xalq var olacaq, yaşayacaq və inkişaf edəcək.

Əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyev Naxçıvana qayıtdı. Fəxr edirəm ki, həmin dövrdə mən də Ulu Öndərimizlə görüşmüşəm və O mənə atam haqqında xoş sözlər deyib. Bu qayıdış sabaha gedən yolumuzun təməlini qoydu. İnsanların arzusu və istəyi ilə Ulu Öndər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Bir qədər sonra Ulu Öndər ölkəmizə rəhbərlik etməyə başladı. Bundan sonra dövlətimiz hərtərəfli inkişaf yoluna qədəm qoydu. İstər mənəvi, istərsə də maddi cəhətdən xalqımızın vəziyyəti yaxşılaşmağa başladı. Xalqımızın sabaha olan ümidləri artdı. Çətin günlərimiz arxada qaldı. Həyatımızda hiss olunacaq dəyişikliklər özünü göstərdi. İnkişaf xəttini tutan dövlətimiz günbəgün gücləndi. Bu inkişaf, bu tərəqqi sayəsində yaşadığımız çətin günləri tərəqqi dövrü əvəz etməyə başladı. Düşmən də uğurlarımızı görüb qınına çəkildi. Sərhədlərimiz möhkəmləndi. İqtisadi uğurlarımız yaşamımızda, həyat tərzimizdə özünü göstərdi. Quruculuq siyasəti ən ucqar dağ kəndlərindən biri olan Kükünün də hüsnünə bir naxış çəkdi.

Qaz, elektrik enerjisi insanların tələbatı səviyyəsində nəql olundu. Kommunikasiya xətləri yenidən quruldu. Yollar, küçələr, səkilər yeniləşdi. Müasir sosial obyektlər – məktəb binaları, səhiyyə müəssisələri yeni layihələr əsasında inşa olunaraq əhalinin istifadəsinə verildi. Kənd təsərrüfatının bütün sahələri inkişaf etməyə başladı. Sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi nəticəsində yerli məhsulların istehsalı ilbəil çoxaldı. Qaçqın, köçkün, şəhid ailələri, qazilər üçün fərdi mənzillər tikildi. Sadalamaqla, saymaqla bitib-tükənməyən bu işlər sayəsində indi biz ömrümüzün ən gözəl günlərini yaşayırıq. Çünki arzularımız gerçəkləşib. Artıq bu gün dövlət başçımızın Heydər Əliyev siyasətinə dönməz sədaqəti, prinsipiallığı, iradəsi nəticəsində ölkəmizin digər bölgələri ilə yanaşı, doğma Naxçıvanımız da inkişafın yeni mərhələsini – tərəqqi dövrünü yaşayır.

Əhalinin həm iş, həm də məişət şəraiti bəzi Avropa ölkələri ilə müqayisədə, ən yüksək səviyyədədir. İndi hər bir azərbaycanlı qürur hissi keçirir ki, onun arxasında iqtisadi inkişafın, sosial tərəqqinin, mədəni intibahın gücləndiyi bir dövlət durur.

2020-ci ilin 44 günlük Vətən müharibəsi xalqımızın tarixində heç vaxt unudulmayan il oldu. Respublikamızın Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə, Azərbaycan əsgərinin igidliyi sayəsində şəhidlərin qanı axmış tarixi Qarabağ torpağımız geri alındı.

Bütövlükdə, Azərbaycanın hərtərəfli inkişafına, yeniləşməsinə, tərəqqisinə yeni-yeni töhfələrin verilməsi yalnız bir məqsədə xidmət edir. Bu da insanların yaxşı yaşamasını təmin etmək, inkişaf və tərəqqi sayəsində dövlətimizin qüdrətini artırmaqdır.

Müstəqillik illərində uğurla addımlayan respublikamızın keçdiyi yola nəzər salanda görürük ki, bu tərəqqinin əvvəlində kasıblıq, yoxsulluq, sonunda isə intibah var. Belə bir dövlətin vətəndaşı olmaq, görülən işlərə az da olsa, töhfə vermək və bu xalqın bir nümayəndəsi olmaq qürur doğurur. Mən inanıram ki, yaxın gələcəkdə bir daha böyük uğurlardan, nailiyyətlərdən ürəkdolusu danışacağıq.

**Yunis QULİYEV**
***A.Quliyev adına Kükü kənd tam orta məktəbinin təqaüdçü müəllimi***




# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib

*Fevralın 23-də Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının Babək Rayon Mədəniyyət Sarayında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konserti keçirilib.*

Rayonun mədəniyyət və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi konsertdə Ulu Öndərin sevdiyi, dahi rəhbərə həsr olunmuş mahnılar ifa olunub, bir sıra vətənpərvərlik ruhunda əsərlər səsləndirilib.

Oktay Kazımovun “Vətən gözəl” mahnısı ilə başlayan konsert proqramında yer alan “Alagöz”, “O Naxçıvandır”, “Vətən yaxşıdır”, “Naxçıvandadır”, “Yaşa, mənim xalqım”, “ El yolunda” , “Ey Vətən oğlu” və digər mahnılar Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Zülfiqar Mahmudov, Ruhiyyə Hüseynova, Hünər Əliyev və filarmoniyanın solistləri İsrafil Qibləliyev, Nərmin Hüseynova, Zamin Vəliyev tərəfindən ifa olunub.

Konsert tamaşaçıların gur alqışları ilə sona çatıb.

Qeyd edək ki,“Heydər Əliyev İli” çərçivəsində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin Tədbirlər Planına əsasən Naxçıvan Dövlət Filarmoniyasının musiqi kollektivləri Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında konsert proqramı ilə çıxış edəcək.

***



Şahbuz Rayon Mədəniyyət Sarayında keçirilən tədbirdə çıxış edənlər Ümummilli Lider Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyinin həm birinci, həm də ikinci mərhələsində mədəniyyət sahəsinin inkişafı məqsədilə həyata keçirilən islahatları diqqətə çatdırıb, mədəniyyət işçilərinə, teatr və incəsənət xadimlərinə göstərilən hərtərəfli qayğıdan danışıblar. Qeyd edilib ki, XX əsrdə xalqımızın mədəni həyatında yeni bir dövr başlayıb və bu dövr Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Vurğulanıb ki, dahi şəxsiyyətin diqqət və qayğısı ilə muxtar respublikamızın hər yerində olduğu kimi, Şahbuzda da yeni mədəniyyət ocaqları, kitabxanalar inşa olunub, onların maddi-texniki bazası xeyli gücləndirilib. Hazırda Şahbuzda xalq teatrı, xalq yaradıcılığı, folklor və musiqi kollektivlərinin fəaliyyəti üçün hərtərəfli şərait mövcuddur.

Tədbirin sonunda “Heydər Əliyev mədəniyyətimizin hamisidir” sənədli filminə baxış olub.

**Xəbərlər şöbəsi**

# Haqq səsinin ucaldığı unudulmazlıq minarəsi...

*Dayanmışam “Vətən üçün ölüm haqdır”, – deyərək tankın, topun qabağına məğrurcasına yeriyən yurd, torpaq sevdalı oğulları, ah-naləsi dağları dəlsə də, mənəviyyatsız namərdin nifrət buzuna çevrilən xain ürəyini isitməyən, hiyləni kömək bilən məsum duyğulu körpələri, ağlasığmaz işgəncə qarşısında son anadək iffətini qoruyan, gözünü qırpmadan ölümü şərəfinə qurban verən ismətli ana-bacıları, naəlac, biçarə baxışları övladına dikilən qürurlu, vüqarlı ataları yad etmək üçün hər il üz tutduğumuz xatirə kompleksi önündə.*

Bir qədər yuxarıda, şəhərimizin ən əzəmətli guşəsində qərarlaşan Dövlət Bayrağı Meydanında qürurla dalğalanan zəfər məramlı üçrəngli bayrağımızı seyr edə-edə qanlı 26 fevral günü ilə bağlı izlədiyim sənədli filmlərin dəhşət qoxan kadrları, hadisə barədə yaşlı insanların saatlarla bitmək bilməyən qəhərli söhbətləri, Böyük Zəfərə aparan mübarizə yolumuzun keşməkeşli anları bir - bir sıralanır yaddaşımda. Bəli, düz 31 il ötür 613 nəfərin öldürüldüyü, 487-nin şikəst olduğu, 1275 dinc sakinin əsir götürülərək ağlasığmaz zülmə, işgəncəyə məruz qaldığı, 150 nəfərin taleyin naməlum səhifəsinə yuvarlandığı, bütün dünyanın haqsızlığa, ədalətsizliyə göz yumduğu o müdhiş faciədən. Heç bir yazıçının, jurnalistin tam mənada ifadə edə, incəsənət xadiminin, kinorejissorun dolğun şəkildə canlandıra bilmədiyi dəhşət dolu bir hadisə, kəlmələrin kifayətsiz, cümlələrin yetərsiz qaldığı, kitablara sığmayan bir məqamsan, ey 31 yaşlı tarix dərsi, unudulmazlıq minarəsi...




*“İnsanlığa sığmayan faciə”*
*Rəssam: Ləman Məmmədova*

Canımızda cövlan edən qeyrət dolu qan Xocalım! Əbəs yerə demirlər ki, arxalı köpək qurd basar. Bəli, maddi-mənəvi zənginliyindən gözləri qamaşan, hər vəchlə var-dövlətinə sahiblənməyə çalışan fitnəkar düşmən də məhz öz arxasına güvənərək, səni kimsəsiz, köməksiz görüb özündə cürət tapdı üstünə yeriməyə. Yoxsa, əsla bacarmazdı səni bizdən qoparmağı. Bağrının al qana boyandığı o gündən hər ötən an nifrət dolu hayqırtımız, əsasən, düşmənə olsa da, səni dar məqamda arxasız buraxan, köməyinə, imdadına yetişməyən ürəyini vəzifə eşqi istila edən, millətin taleyi ilə oynayan içimizdəki naşı rəhbərlərin çirkin hərəkətlərini də unutmadıq, layiq olduqları yeri göstərdik onlara. ***“Xocalı faciəsi bir tərəfdən hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır – vəhşiliyin görünməmiş bir təzahürüdür”*** – deyən Ümummilli Liderimiz Heydər Əliyev faciənə ən dəqiq siyasi-hüquqi qiyməti verməklə ürəyimizdəki ümid şöləsini, inam işığını yandırdı, dahi şəxsiyyətin təməlini qoyduğu nicat yoluna sədaqət andıyla bir an belə usanmadan, yorulmadan apardıq bütün cəbhələrdə mübarizəmizi, “Xocalıya ədalət!” şüarı dastan oldu dilimizdə, qəlbimizdə. Ötən 31 ilin hər gününü var qüvvəmizlə çalışdıq köksünə vurulan sağalmaz yaranın qaysağının qopmaması naminə, haqqına baiskar olan cəlladların layiqli cəzasına çatmaları üçün. Xüsusi amansızlıqla qətlə yetirilən övladlarının, misilsiz vəhşiliklə diri-diri yandırılmış, başları kəsilmiş, üzlərinin dərisi soyulmuş, gözləri çıxarılmış körpə uşaqların, bədəni süngü ilə deşik-deşik edilmiş hamilə qadınların fəryad qoparan, dəhşət saçan fraqmentlərinə baxdıqca nə qəhər dolu nitqimizə hakim kəsilmək mümkün idi, nə də qəzəbdən düyünlənən yumruqlarımıza, hədəqədən çıxan gözlərimizə, qıcanan dişlərimizə. Yeganə istəyimiz isə Ali Baş Komandanımızın hücum əmrini verməsi və işğala məruz qalan bütün torpaqlarımızı azad etmək, Vətən uğrunda qanlar tökən həmvətənlərimizin qisasını layiqincə almaq idi...

Ümummilli Liderimizin çox qiymətli bir kəlamı bütün dönəmlərdə olduğu kimi yenə təcəlla etdi: ***“Tarix həmişə hər şeyi öz yerinə qoyur”.*** Bəli, tarix bir az yubatsa da, gec-tez kimin kim, nəyin nə olduğunu göstərdi, yerindən qopan bütün daşları yerinə oturtdu... Əziz Xocalım, uzaqdan-uzağa şahidi oldun ki, dəyişən zamanla dahi rəhbərin yoluna sədaqət sayəsində ölkəmizin həyatında da dəyişikliklər yarandı, qüdrətli dövlətə, yenilməz orduya sahib olduq, uzaqgörən siyasət nəticəsində tarix bizi zirvəyə apararkən özü qazdığı quyuya saldı nankor düşmənimizi. Vaxt ötdü, vədə yetişdi, Ali Baş Komandanın əmrinə müntəzir Azərbaycan əsgəri döyüş meydanında dedi öz sözünü, 2020-ci ilin sentyabrın 27-dən etibarən 44 günə son qoydu xalqımızın qəlbində illərdir, alışıb-yanan torpaq, yurd həsrətinə, alındı qurban gedən canların, tökülən qanların qisası. Ali Baş Komandanın “Dəmir yumruğ”u, birliyimiz, bərabərliyimiz, vətənpərvər oğullarımız sayəsində qovuşduq əzəli torpaqlarımıza əbədi olaraq. Zəfər, qələbə rayihəsinə büründü el-obamız, qış ömrünə bahar gəldi, pərvazlandı xarıbülbül, igid oğullar oylağına çevrildi, ismətli qızları qoynuna mehman eylədi sinəsi al-əlvan gül-çiçəklə bəzənən Cıdır düzü, pərişan ruhları hüzur tapdı Üzeyir, Bülbül, Vaqif, xan qızı Natəvan kimi mənəviyyat xəzinələrimizin, gavur girdabından qurtuldu, naqis əməllərdən xilas oldu tarixi abidələrimiz, mədəni irsimiz, milli dəyərlərimiz...

Və bu gün artıq qalib ölkə, müzəffər xalq şöhrətini daşıyırıq, öyünürük digər millətlər arasında, əvvəlki kimi gözümüz yerə dikilmir, başımız dik şəkildə gedirik Vətən övladlarının məzarları önünə, böyük qürur hissi ilə yad edirik şəhidlərimizin əziz xatirəsini. Daha övladlarımızın yanında Qarabağ adı gələndə ürəyimiz dağlana-dağlana, sıxıla-sıxıla torpaqlarımızı itirməkdən deyil, qalib xalqın nümayəndəsi kimi böyük şəstlə qazandığımız misilsiz qələbədən bəhs edir, qəhrəman oğullarımızın döyüş yolundan, vətənpərvərlik nümunələrindən söhbət açır, Ali Baş Komandanımızın “Qarabağ Azərbaycandır!” qətiyyətinin mahiyyətini aşılamağa çalışırıq uşaqlara. Düşünəndə ki, xalqımızın, millətimizin həllivacib qürur, heysiyyət məsələsini həll etməyi deyil, bütöv, qüdrətli Azərbaycanı gələcəyimiz olan övladlarımıza ərməğan edəcəyik, – bax o zaman daha böyük fəxarət hissi ilə qabarır köksümüz, qürurla etizaza gəlir ruhumuz...

Vəsiyyəti böyük siyasi iradə, sarsılmaz qətiyyətlə yerinə yetirilən Ümummilli Liderimizin arzuları çindir bu gün: ***“İnanıram ki, Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmlənməsi, sərhədlərinin toxunulmazlığının və ərazi bütövlüyünün təmin edilməsi Xocalı şəhidlərinə və xalqımızın bütün qəhrəman övladlarına ucaldılan möhtəşəm abidə olacaqdır”.*** Can Xocalım, uğrunda can verib, qan tökən qəhrəman övladlarının ruhu şaddır artıq, onlar üçün 44 günlük Vətən müharibəsi ilə ucaldılan o möhtəşəm abidə gün ötdükcə daha da əzəmətli görkəm alacaq, şübhəsiz. Ölkə Prezidentinin Xocalı soyqırımının 30 illiyi ilə bağlı 2022-ci il 28 yanvar tarixli Sərəncamı da bir daha göstərdi ki, xalqımız, dövlətimiz aradan nə qədər zaman ötsə də, o misilsiz faciəni hər zaman xatırlayacaq, xatırladacaq, heç bir zaman yaddaşımızdan silinməyəcək haqq səsimizin ucaldığı unudulmazlıq minarəmiz olaraq qalacaqsan, əziz Xocalım...

**Nail ƏSGƏROV**

*Xalqımızın XX əsrdə üzləşdiyi dəhşətli Xocalı faciəsi bəşəriyyətə qarşı yönəlmiş ən qəddar soyqırımlardandır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal edərkən dinc əhaliyə amansızlıqla divan tutulmuş, uşaq, qadın, ahıl və qocalar vəhşicəsinə qətlə yetirilmiş, girov götürülmüş, şəhid olmuşdur. Xocalı soyqırımında ermənilər 8 xocalılı ailəni tamamilə məhv etmişlər.*

# Bir ailənin faciəsi



Bu gün həmin ailələrin bir nümayəndəsi belə qalmayıb. Həmin ailələrin birindən – Qəmbərovlar ailəsindən bəhs edirik. 1961-ci il təvəllüdlü Səfər Qəmbərov, 1967-ci il təvəllüdlü Mətanət Qəmbərova, onların övladları 1986-cı il təvəllüdlü Emin və 1985-ci il təvəllüdlü Esmira Qəmbərova, eləcə də Səfər Qəmbərovun atası Qarsalan, anası Validə və qardaşı Nadir Qəmbərovlar da həmin dəhşətli gecədə vəhşicəsinə qətlə yetirilmişlər. Bu ailə haqqında ətraflı məlumatı tarix üzrə fəlsəfə doktoru Yəhya Babanlının “Qapıcıq zirvəsinə yüksələnlər” kitabından əldə etdik.

Mətanət Ağalarova (Qəmbərova) ordubadlıların özünəməxsus şəkildə qeyd etdiyi Novruz bayramı ərəfəsində – martın 23-də Ordubad şəhərində dünyaya göz açıb. O özündən böyük üç qardaşı – Samiddin, Səyavuş, Qurban, bacısı Səriyyə üçün sanki Novruz sovqatı idi…

İllər sürətlə ötüb keçir, Mətanət 1974-cü ildə Əkbər Ağayev adına Ordubad şəhər 3 nömrəli tam orta məktəbin birinci sinfinə daxil olur. Məktəbi yaxşı oxusa da, ailə vəziyyəti ilə əlaqədar təhsilini başa çatdırmadan Yusif Məmmədəliyev adına Ordubad ipək kombinatında işə düzəlməli olur, ailənin yükünü yüngülləşdirməyə çalışır. Az sonra atası vəfat etdiyi üçün qardaşı Samiddinin himayəsində yaşayır. Heç demə, gənc qızın taleyində doğma eldən uzaqlara gəlin köçmək varmış…Xankəndidən olan Səfər Qəmbərovla ailə quran Mətanət 1985-ci ildən Qarabağda yaşamağa başlayır. Burada onun iki övladı – Emin və Esmira dünyaya gəlir. Gənc ər-arvad öz əlləri ilə tikdikləri evdə yenicə rahatlığa qovuşmuşdular ki, xəyanətkar ermənilər yenidən əsassız torpaq iddiaları ilə aranı qarışdırmağa başlayırlar. Xankəndidə yaşayan azərbaycanlı ailələrin narahatlığı günbəgün artırdı. Erməni millətçiləri Mətanətgili də öz ev-eşiyindən didərgin salmaq üçün tez-tez hədə-qorxu gəlirdilər. Vaxtilə Ordubadda Dövlət Təhlükəsizliyi Komitəsinin rayon şöbəsində işləmiş və öz təəssübkeşliyi ilə el arasında hörmət qazanmış Tahir Hümbətov həmin vaxt Şuşada işlədiyi üçün qohum-əqrəba kömək ümidilə ona müraciət edir. Tahir müəllimin işə qarışması ilə gənc ailəyə qarşı haqsızlığın, hədə-qorxunun qarşısı alınır.

Lakin qısa müddətdən sonra Mətanətgilin Xankəndidə qalması mümkünsüz olur. Ermənilər onların evlərini yandırır, özlərini də öldürmək istəyərkən qaçıb canlarını qurtarırlar. Didərgin ailə əvvəlcə Şuşa mehmanxanasında müvəqqəti məskunlaşsa da, sonradan Xocalıya köçmək məcburiyyətində qalır. Bir müddət buradakı “fin evləri”ndə yaşayırlar. Mətanət özü isə Xocalı rayon sovetində işlə təmin olunur. Yeni ev tikmək üçün onlara torpaq sahəsi də verilir. Lakin min bir əziyyətlə tikib başa çatdırdıqları birmərtəbəli, dördotaqlı evdə yaşamaq bu zəhmətkeş ailəyə qismət olmur. Ermənilər onları burada da dinc qoymurlar. Tez-tez raket, top atəşinə oyanan Esmira və Emin qışqırıb ağlayırlar. Mənfur erməni-rus hərbi birləşmələri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıya qəfil hücumla şəhəri yerləyeksan edir. Mətanət övladlarını ölümdən qurtarmaq istəyir. Amma atılan güllələr onun köksünü parçalayır. Qatil ermənilər Emin və Esmiranı, ailənin digər üzvlərini də amansızcasına güllələyirlər...

Ermənilər bu və bunun kimi neçə ailənin həyatına son qoydular. Bu faktlar adamı dəhşətə gətirir, ürəyini parçalayır. Xocalı faciəsini, onun qurbanlarını unutmadıq. Bu ağır faciə xalqımızı bir yumruq ətrafında birləşməyə, mübarizəyə səfərbər etdi. Vətən müharibəsində əldə edilən şanlı Zəfərlə Xocalı faciəsi qurbanlarının da qisası alındı, şəhidlərimizin qanı yerdə qalmadı. Ölkə başçısı cənab İlham Əliyevin dediyi kimi: ***“Biz Xocalı qurbanlarının intiqamını döyüş meydanında aldıq. 44 gün davam edən İkinci Qarabağ müharibəsində Ermənistan ordusunu darmadağın edərək, öz tarixi torpaqlarımızı işğalçılardan azad edərək, o cümlədən Xocalı qurbanlarının da qanını aldıq...”***

Ancaq hələ də soyqırımı törədən hərbi qatillər, cinayətkarlar, canilər cəzasız qalıblar. Lakin cəzasız qalan cinayət yoxdur. Xocalı faciəsinin təqsirkarları, onun təşkilatçıları və icraçıları gec-tez ədalət məhkəməsi qarşısında cavab verəcək layiqli cəzalarını alacaqlar. Xalqımız hər il soyqırımı qurbanlarının əziz xatirəsini yad edir. Bugünkü və gələcək nəsillər Xocalı soyqırımının dəhşətlərini heç vaxt unutmayacaq.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Bu günün məktəbli ixtiraçıları, gələcəyin alimləri

*Ölkəmizdə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə XXI əsrin tələblərinə uyğun təhsil sistemi formalaşıb. Bu təhsil sistemində gənc nəsil gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlanır, kadr hazırlığı əmək bazarının tələblərinə uyğunlaşdırılır, beynəlxalq sertifikatlara uyğun mütəxəssislər hazırlanır, yüksək peşə bacarıqlarına malik insan kapitalı yaradılır.*

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Təhsil İnstitutu tərəfindən keçirilən "Sabahın alimləri" respublika müsabiqəsi, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin birgə həyata keçirdiyi "Sabahın tədqiqatçıları" layihəsi şagirdlərin elmi axtarışlara sövq edilməsi, onların elmi və yaradıcılıq potensiallarının üzə çıxarılması və inkişaf etdirilməsində mühüm rol oynayır. Məlumat üçün bildirək ki, "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində bu günədək 74 elmi rəhbərin və 132 şagirdin iştirakı ilə Naxçıvan Muxtar Respublikası üçün əhəmiyyətli olan 81 layihə üzrə tədqiqatlar aparılıb. 2023-cü ildə də "Sabahın tədqiqatçıları" layihəsinin uğurlu tətbiqi üçün Naxçıvan şəhərində fəaliyyət göstərən ümumtəhsil məktəblərinin 60 şagirdi 5 istiqamət – Azərbaycan dili, tarix, fizika, kimya və biologiya olmaqla, 39 layihə üzrə tədqiqat aparır. "Sabahın tədqiqatçıları" layihəsinin iştirakçısı olan Naxçıvan məktəbliləri bir sıra dünya və respublika əhəmiyyətli müsabiqələrdə iştirak edərək uğurlar əldə edirlər. Bu yaxınlarda Bakı şəhərində keçirilən "Sabahın alimləri" XII respublika müsabiqəsində də məktəblilərimiz müxtəlif layihələr üzrə nailiyyətlər qazanıblar. Bu barədə Naxçıvan Şəhər Təhsil Şöbəsinin baş məsləhətçisi, Naxçıvan Gənc Müəllimlər Assosiasiyasının sədri, "Sabahın tədqiqatçıları" layihəsinin icraçı rəhbəri ***Gülxanım Orucova*** ətraflı məlumat verdi.




Müsahibim bildirdi ki, 2019-cu ilin noyabr ayından başlayaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və AMEA Naxçıvan Bölməsinin birgə təşkilatçılığı ilə "Sabahın tədqiqatçıları" layihəsi icra olunur. Bu layihədə məqsəd istedadlı şagirdlərin aşkar olunması və şagirdlərin müxtəlif müsabiqələrdə iştirakının təmin edilməsidir. İlk dəfə 2020-ci ildə Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdləri "Sabahın alimləri" IX respublika müsabiqəsində 2 komanda şəklində 4 şagird riyaziyyat üzrə iştirak edərək III yerin qalibi olub. 2021-ci ildə Naxçıvandan 4 layihə təqdim edilib və Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin şagirdi onlayn formatda keçirilən "Sabahın alimləri" X respublika müsabiqəsində biologiya üzrə III yerin qalibi seçilib. Müsabiqədə iştirak edən digər şagirdlər də müsabiqənin 10 illik diplom və medallarına layiq görülüblər. Həmin il 4 layihə ilə müsabiqəyə qoşulan şagirdlərdən 3-ü beynəlxalq sertifikatlara layiq görülüb. Bu il isə "Sabahın tədqiqatçıları" layihəsinin iştirakçıları "Sabahın alimləri" XII respublika müsabiqəsinə 8 müxtəlif istiqamət üzrə 7 layihə təqdim edib, onlardan 6-sı final mərhələsinə vəsiqə qazanıb. 13-15 fevral tarixlərini əhatə edən müsabiqənin yekun nəticələrinə əsasən Naxçıvan Qızlar Liseyinin şagirdləri Surə Ələkbərova və Jalə Bayramova riyaziyyat nominasiyası üzrə II yerə layiq görüldülər. Şagirdlərin elmi rəhbəri Adil Abdullayev, mütəxəssis alim isə Bəhman Məmmədovdur. Müsabiqədə Heydər Əliyev adına tam orta məktəbin şagirdi Asya Əliyeva "Darıdağ sürmə filizindən kosmetik sürmənin alınması", Naxçıvan Qızlar Liseyinin şagirdi Cansu Cəlilova isə "Naxçıvan Muxtar Respublikasında zəfəranın yetişdirilməsi və introduksiyası" layihələrinə görə beynəlxalq diplomlara layiq görülüblər. Ötən günlərdə Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseydə "Sabahın alimləri" XII respublika müsabiqəsinin iştirakçıları ilə görüş keçirildi, onlara Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin diplomları təqdim olundu.

"Sabahın alimləri" XII respublika müsabiqəsində fərqlənməyi bacaran məktəblilərlə həmsöhbət olduq.

***Cansu Cəlilova*** 2007-ci ildə Naxçıvan şəhərində anadan olub. Naxçıvan Qızlar Liseyinin 10-cu sinfində təhsil alır. O bizimlə söhbətində dedi: – Elmi rəhbərimlə birgə hazırladığımız zəfəran bitkisinin yetişdirilməsi və introduksiyası haqqındakı məqalə Rusiyada 1-ci dərəcəli diploma layiq görüldü. Bu layihəni "Sabahın alimləri" XII respublika müsabiqəsinə təqdim etdik və burada Vitro-biologiya Cəmiyyətinin sertifikatına layiq görüldük. Əlbəttə ki, bu uğurlar gələcəklə bağlı məni daha da həvəsləndirir, böyük stimul verir. Hazırda IV qrup üzrə universitetə hazırlaşıram, arzum həkim olmaqdır.



***Surə Ələkbərova*** 2008-ci ildə Babək şəhərində doğulub. Hazırda Naxçıvan Qızlar Liseyində təhsilini davam etdirir: – Ötən il "Sabahın tədqiqatçıları" layihəsi üzrə hazırladığımız məqalə "Gənc alim" jurnalında dərc olunub, "Mənim dilim, mənim dostum" adlı olimpiadada I yerə layiq görülərək "Qızıl" medal, 1-ci dərəcəli diplom ilə mükafatlandırılmışam. 2021-2022-ci tədris ilində IX sinfi qırmızı şəhadətnamə ilə bitirmişəm. Naxçıvan şəhərində keçirilən olimpiadada Azərbaycan dili və ədəbiyyat fənni üzrə qalib adını qazanıb, respublika fənn olimpiadasında bu fənn üzrə III yerə layiq görülmüşəm. "Sabahın alimləri" müsabiqəsində iştirakımın mənim üçün böyük təcrübə olacağını düşündüm. Riyaziyyat fənnini sevdiyim üçün bu nominasiya üzrə müsabiqədə iştirak etdik və II yerə layiq görüldük. Orada iştirak zamanı müxtəlif ixtisaslar üzrə professor-alimlərlə tanış oldum, bilmədiklərimi öyrəndim, yeni məlumatlar əldə etdim. Gələcəklə bağlı planlarım III ixtisas qrupu üzrə imtahan verib, Hüquq fakültəsinə qəbul olmaq və xaricdə əlavə təhsil almaqdır.



***Jalə Bayramova*** 15 mart 2007-ci ildə Naxçıvan şəhərində anadan olub. Hazırda Naxçıvan Qızlar Liseyinin X sinif şagirdidir. Onun dediklərindən: – Naxçıvan Qızlar Liseyinə qəbul olmamışdan əvvəl Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbdə təhsil alırdım. IV sinifdə oxuyarkən liseyə giriş üçün imtahan verərək yüksək bal toplayaraq orada təhsil almağa haqq qazandım. Liseydə oxuduğum müddətdə bu günədək imtahanlarda yüksək nəticələr əldə edərək bütün sinifləri əlaçı olaraq bitirmişəm. Buraxılış imtahanında yüksək nəticə toplayaraq fərqlənmə attestatına layiq görülmüşəm. Ötən il dekabrın 27-də Bakı Mühəndislik Universitetində riyaziyyat fənni üzrə elm-layihə yarışmasında I yerə layiq görülüb "Qızıl" medal və sertifikatla təltif edilmişəm. Həmçinin "Sabahın tədqiqatçıları" layihəsində iştirak edərək bu yaxınlarda keçirilən onlayn kimya olimpiadasında I yer tutub qızıl medal almışam. Bu il keçirilən "Sabahın alimləri" XII respublika müsabiqəsində sinif yoldaşım Surə Ələkbərova ilə birgə hazırladığımız tərəflərinə görə daha özəl üçbucaqlar layihəsi ilə riyaziyyat nominasiyası üzrə II yerə layiq görülüb gümüş medal, diplom və sertifikatla mükafatlandırılmışıq.

Jalə müsabiqədə iştirakı ilə bağlı geniş şəkildə məlumat verərək dedi: – Aşağı siniflərdən riyaziyyat fənninə olan marağım məni bu müsabiqəyə riyaziyyat fənni üzrə qatılmağa daha da həvəsləndirdi və sinif yoldaşımla birgə layihə hazırlayıb qeydiyyatdan keçdik. 70-ə yaxın riyaziyyat layihəsi içərisindən 18-i finala keçməyə haqq qazandı ki, elə bunlardan biri də məhz bizim layihəmiz idi. Bakıda layihəmizi alimizdən gəldiyi qədər aydın və anlaşıqlı şəkildə izah etməyə çalışdıq. Layihəmiz münsiflər tərəfindən çox bəyənildi və nəticədə, uğur qazandıq. Bunu da qeyd edim ki, layihəmiz yalnız münsiflər tərəfindən deyil, orada iştirak edən şagirdlər, müəllimlər, sərgiyə dəvət olunan valideynlər və digər şəxslər tərəfindən də çox yaxşı qarşılandı. Stendimizin önündən keçən hər kəs layihəmizə maraqla yaxınlaşır və bizdən layihə haqqında məlumat istəyirdi. Mən düşünürəm ki, orada iştirakımız, əldə etdiyimiz nailiyyət elə gələcək uğurlarımızın açarı olacaq. Orada iştirak edib, həmin atmosferdə olub üstəlik də qalib olaraq geri dönmək çox yaxşı bir hiss idi. Mən hazırda IV qrup üzrə ali məktəbə qəbul olmaq üçün hazırlaşıram və əsas məqsədim həkim olub insanlara həyatı yenidən bəxş etməkdir.



***Asya Əliyeva*** 2007-ci il avqustun 3-də Naxçıvan şəhərində doğulub. Heydər Əliyev adına tam orta məktəbin X sinif şagirdidir: – IX sinfi fərqlənmə attestatı ilə bitirmişəm. Həmçinin IX sinifdə oxuyarkən Naxçıvanda keçirilən olimpiadada kimya fənni üzrə III yerin qalibi olmuşam. 2021-2022-ci tədris ilində "Sabahın tədqiqatçıları" layihəsində kimya fənni üzrə iştirak edib, Məktəbli və tələbələrin IV Ümumrusiya distant elmi-praktik konfransında 3-cü dərəcəli diplomla mükafatlandırılmışam. Bu layihə bizə bilik və bacarıqlarımızı ortaya çıxarmağa, onu elmi şəkildə təqdim etməyə imkan yaratdı. Bakı şəhərində keçirilən "Sabahın alimləri" respublika müsabiqəsində elmi rəhbərim ilə birgə kimya kateqoriyası üzrə hazırladığımız "Darıdağ sürmə filizindən kosmetik sürmənin alınması" məqaləsi ilə iştirak etdik. 468 layihə arasından 163 layihə seçildi ki, onlardan biri də mənim layihəm oldu və beynəlxalq sertifikata layiq görüldüm. Müsabiqədə iştirak etməklə yeni layihələrlə tanış oldum, dünyagörüşümü daha da artırdım.



*Hər kəsin böyük ümidlərlə baxdığı məktəbli ixtiraçılarımız inanırıq ki, gələcəyin yenilikçi alimi kimi Azərbaycanın adını elm sahəsində yüksəldəcəklər. Beynəlxalq arenada ölkəmizi layiqincə tanıdacaq, əldə etdikləri nailiyyətlərlə bundan sonra da bizi sevindirəcəklər!.*

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Babək Rayon İcra Hakimiyyətinin rəsmi internet saytı yenilənib

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin proqramçıları tərəfindən Babək Rayon İcra Hakimiyyətinin rəsmi internet saytı müasir proqramlaşdırma dillərindən istifadə edilərək müasir üslubda yenidən hazırlanıb.



*babek-ih.nakhchivan.az* domen adı ilə fəaliyyət göstərən yeni internet saytı həm funksionallıq, həm də məzmun cəhətdən əvvəlki versiya ilə müqayisədə daha da təkmilləşdirilib və yeni informasiyalarla zənginləşdirilib.

Yenilənmiş internet səhifəsinin SSL (təhlükəsizlik) sertifikatı ilə təmin olunması, optimizasiyası (SEO-Search Engine Optimization) axtarış sistemlərinə uyğunlaşdırılması, "Google" axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün nazirliyin mühəndisləri tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib. Saytın domen ünvanı da müvafiq qaydada yenilənməklə *"gov.az"* domeninə bağlı e-poçt adresləri ilə təmin olunması diqqətdə saxlanılır.

Qeyd edək ki, yenilənmiş informasiya resursu AzStateNet şəbəkəsində yerləşdirilməsi üçün audit olunması məqsədilə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə göndərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Oğurluq hansı hallarda cinayət məsuliyyətinə səbəb olur?*

***Cavab:*** Cinayət qanunvericiliyinə əsasən oğurluq, yəni özgənin əmlakını gizli olaraq talamaqla əgər bu talama əmlakın mülkiyyətçisinə beş yüz manatadək məbləğdə ziyan vurmaqla törədilərsə, bu xırda talama hesab olunur. Xırda talama, yəni oğurlama, mənimsəmə, israfçılıq, qulluq mövqeyindən sui-istifadə və ya dələduzluq yolu ilə özgəsinin əmlakını talamağa görə yüz altmış saatdan iki yüz qırx saatadək ictimai işlər və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə üç ayadək müddətə inzibati həbs tətbiq edilir. Xırda talama əməli Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.

Cinayət qanunvericiliyinə əsasən isə özgənin əmlakını gizli olaraq talama əmlakın mülkiyyətçisinə beş yüz manatdan yuxarı məbləğdə ziyan vurmaqla törədilərsə, cinayət hesab olunur. Bu əməli törətmiş şəxs üç yüz altmış saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Eyni əməllər qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə, təkrar törədildikdə, yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla törədildikdə, elektron məlumat daşıyıcılarından, yaxud informasiya texnologiyalarından istifadə edilməklə törədildikdə, neft kəmərlərinə, dövlət və ya ictimai əhəmiyyətli təbii qaz, rabitə, elektrik, istilik enerjisi, su, kanalizasiya, dəmir yolu xətlərinə münasibətdə törədildikdə, xeyli miqdarda (beş min manatdan yuxarı, lakin əlli min manatdan artıq olmayan məbləğdə) ziyan vurmaqla törədildikdə, zərərçəkmiş şəxsin üzərindən, cibindən, çantasından və ya digər əl yükündən çıxarılmaqla törədildikdə, bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Bu əməllər mütəşəkkil dəstə tərəfindən törədildikdə, külli miqdarda (əlli min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğdə) ziyan vurmaqla törədildikdə, əvvəllər talama və ya hədə-qorxu ilə tələb etməyə görə iki dəfə və ya daha çox məhkum edilmiş şəxs tərəfindən törədildikdə beş ildən on ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Burada isə zərərçəkmiş şəxsə yüz manatdan yuxarı məbləğdə ziyan vurduqda cinayət məsuliyyəti yaranır.

Həmçinin bu tutulmuş əməllər, xüsusilə külli miqdarda (beş yüz min manatdan yuxarı olan məbləğdə) ziyan vurmaqla törədildikdə on ildən on dörd ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***


### İtmişdir

Şahbuz rayonunun Keçili kənd sakini Ağayev Vüqar Dostəli oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonunun Şahbuzkənd sakini Hüseynov Əli Mərdan oğlunun adına verilmiş 3101360552 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Qahab kəndində yaşayan Əliyeva Səhnə Qulamhüseyn qızının adına olan 103013009225 reyestr nömrəli, torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Məcid Əkbərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 142